| SİMURQ LİSEYİ BY LANDAU | Sənədin №: LEG-SL-PY/011 | Tarix: 10.02.2026 | Təftiş №00/Təftiş tarixi:- |
|---|---|---|---|
| | Document №: LEG-SL-PY/011 | Date: 10.02.2026 | Revision № Date : - |

# " Simurq Liseyi" Təhsil Kompleksi MMC Qiymətləndirmə Siyasəti

## MƏQSƏD VƏ ƏHATƏ DAİRƏSİ

Bu Qiymətləndirmə Siyasətinin məqsədi bütün maraqlı tərəflərə məktəbin nəyi, niyə və necə qiymətləndirdiyi barədə aydın məlumat təqdim etməkdir.

Bu siyasət ədalətli, şəffaf və ardıcıl qiymətləndirmə praktikasını təmin etməyi, şagirdlərin inkişafını dəstəkləməyi və akademik inkişaf üçün faydalı rəy verməyi hədəfləyir.

## SİYASƏT BƏYANNAMƏSİ

Simurq Liseyi akademik mükəmməlliyin yüksək standartlarını qorumaq və pozitiv, dəstəkləyici tədris mühiti yaratmaq prinsiplərinə sadiqdir. Bu siyasət müəssisənin təhsil sahəsində hədəflərinə uyğun olaraq ədalətli və kompleks qiymətləndirmənin əhəmiyyətini vurğulayır. Qiymətləndirmə tədris prosesinin ayrılmaz hissəsi olaraq şagirdlərin inkişafı barədə dəyərli məlumat verir və tədris qərarlarını formalaşdırır.

## QİYMƏTLƏNDİRMƏNİN MƏQSƏDİ:

- Şagirdlərin nə bildiyini və növbəti nəyi öyrənməli olduqlarını müəyyən etmək
- Planlaşdırma üçün məlumat vermək (məktəb/sinif/qrup/fərdi), hədəf qoymaq və valideynlərə məlumat təqdim etmək
- Fərdi və qrup inkişafını ölçmək
- Tədris metodlarının effektivliyini qiymətləndirmək
- Müəllimləri və şagirdləri motivasiya etmək
- Milli və beynəlxalq imtahan standartlarına uyğunluq təmin etmək

## QİYMƏTLƏNDİRMƏNİN ƏSAS MƏQSƏDLƏRİ:

1. Formativ qiymətləndirmədən istifadə edərək tədris səviyyəsini ölçmək və bütün şagirdlərin öyrənmə ilə bağlı ehtiyaclarını təmin etmək

2. Şagirdlərə öz inkişaf ehtiyaclarını müəyyən etmələrinə və irəliləyiş üçün yolları görmələrinə imkan yaradan konstruktiv rəy vermək

3. Valideynləri övladlarının inkişafı barədə məlumatlandırmaq və evdə öyrənməni dəstəkləmək üçün sistemli yanaşma tətbiq etmək

4. Şagirdlərin inkişafını fərdi və məktəb səviyyəsində sistematik və effektiv şəkildə monitorinq etmək və qiymətləndirmək, əldə edilən nəticələri təkmilləşdirmə planlarında istifadə etmək,

**Qiymətləndirmə prosesində heyətin vəzifələri:**

**İdarə Heyəti:**

- Maliyyələşdirməni təmin edir
- Məktəbin qiymətləndirmə yanaşmasını dəstəkləyir
- İllik nailiyyət və inkişafı monitorinq edir
- Qiymətləndirmə sistemləri ilə tanış olur

**Direktor:**

- Siyasəti dəstəkləmək üçün resurslar təmin edir
- Qiymətləndirmə üçün zəruri olan təlim və vəsaitlər üçün şərait yaradır
- Müəllimlər tərəfindən formativ qiymətləndirmənin icrasına nəzarət edir.
- Summativ qiymətləndirmə üzrə təlimatlara müəllimlər tərəfindən riayət edilməsini təmin edir
- Qiymətləndirmə məlumatlarını və nəticələrin təhlilini idarə heyətinə təqdim edir
- Valideynlərlə qiymətləndirmə prosedurlarını paylaşır

**Tədrisdə Keyfiyyətin Təminatı şöbəsi:**

- Kiçik Summativ qiymtətləndirmə və Mərkəzi Lisey imtahanı üzrə təlimat və qaydaları hazırlayıb məktəb rəhbərliyinə və müəllim heyətinə təqdim edir
- Zərurət halında imtahan təlimatları və qiymətlədirmə qaydaları ilə bağlı müəllimlərlə görüş təşkil edir və təlimatıandırır
- Daxili və xarici qiymətləndirmə proseslərinə nəzarət edir
- Hər imtahan prosesinin sonunda korpuslar və siniflər üzrə nəticələri təhlil edir
- Təhlil nəticələrini idarə heyəti və məktəb rəhbərliyi ilə müzakirə edir.

**Sinif rəhbərləri:**

- Öz sinifləri üzrə qiymətləndirməyə cavabdehdirlər
- Nailiyyət və inkişafı izləyirlər
- Müəllim və şagirdləri qiymətləndirmədə dəstəkləyirlər
- Rəhbəri olduğu sinfin müxtəlif fənnlər üzrə formativ qiymətləndirmələrin, imtahan nəticələrinin müvafiq fənn müəllimləri tərəfindən sinif jurnallarında dəqiq qeydiyyatını təmin edirlər.

**Müəllimlər:**

- Tədris keyfiyyətinin ölçülməsi üçün qiymətləndirmə həyata keçirirlər
- Qiymətləndirmə nəticələri əsasında şagirdin bilik səviyyəsi və potensialı barədə valideynlərə və məktəbə rəy verirlər
- Qiymətləndirmə nəticələri əsasında şagirdlər üçün hədəflər müəyyən edirlər
- Şagirdlərin inkişaf dinamikasını zləyirlər
- Qiymətləndirmə nəticələrini dəqiqliklə sistemə daxil edirlər
- Şagirdlərin öz bilik və bacarıqlarını nümayiş etdirə bilmələri üçün üxtəlif qiymətləndirmə metodlarından istifadə edirlər

**Valideynlər:**

- Valideyn görüşlərinə qatılırlar
- Şagirdləri hədəflərinə çatmağa dəstəkləyirlər
- Ev tapşırıqlarını izləyirlər
- Ehtiyac olduqlda müəllimlərin məsləhət və tövsiyələrindən yararlanırlar

**Şagirdlər:**

- Müəllim və valideyn rəylərini nəzərə alırlar
- Hədəflərə çatmaq üçün ciddi çalışırlar
- Özlərinə inanır və öz inkişaflarının fərqində olurlar
- Həm məktəb proqramı əsasında, həm də fərdi şəkildə öyrənməyə məsuliyyətlə yanaşırlar

**QİYMƏTLƏNDİRMƏ NÖVLƏRİ**

**Formativ qiymətləndirmə** – Bu, öyrənmə prosesində irəliləyişi müəyyən etmək üçün istifadə olunan davamlı bir prosesdir. Müşahidə, sual-cavab, iş dəftərləri, özünü və qarşılıql qiymətləndirmə

kimi üsulları əhatə edir. Bu qiymətləndirmənin nəticələri bəzən qeyd olunur, lakin bunu etmək məcburi tələb deyil.

**Kiçik Summativ qiymətləndirmə** – öyrənmə mərhələsinin sonunda müvafiq bölmə üzrə biliklərin möhkəmləndirilməsini ölçmək üçün istifadə olunur. Bu qiymətləndirmə müşahidə, sual-cavab, test yolu ilə aparıla bilər. Bu imtahan ümumi qaydalar çərçivəsində fənn müəllimi tərəfindən həyata keçirilir.

**Mərkəzləşmiş Lisey imtahanı** – Standartlaşdırılmış imtahanlardır. Qaydalar və suallar mərkəzləşmiş qaydada təqdim edilir və imtahan nəticələri məktəbdə təhsil səviyyəsini ölçmək, müqayisəli təhlillər aparmaq üçün əsas meyar hesab edilir.

## Simurq Liseyində qiymətləndirmə prosedurlar

Qiymətləndirmə tədris ili ərzində davamlı olaraq həyata keçirilir

**Formativ qeydlər:**

- Müəllimlər sinif və ev tapşırıqlarını qeyd edir
- Hər trimestr 2 ev tapşırığı qiymətləndirilir
- Şərhlər sistemdə yerləşdirilir
- Dəftərlər aylıq olaraq direktor müavinləri tərəfindən yoxlanılır

Formativ qiymətləndirmə alətləri:

- Portfoliolar
- Sorğular və viktorinalar
- Layihələr
- Fikir xəritəsi
- Ev tapşırıqları
- Oyunlar
- Rollu oyunlar və debatlar
- Eksperimentlər
- Müsahibələ
- Özünü və qarşılıqlı qiymətləndirmə
- Video hazırlamaq

**Summativ qiymətləndirmə:**

- İmtahan günü iştirak məcburidir.
- Yenidən imtahan yalnız ciddi xəstəlik və ya ailə səbəbi ilə mümkündür. Bu halda valideyn tibbi arayış təqdim etmək şərti ilə şagirdin imtahanda iştirakının təmin edilməsi üçün Məktəb rəhbərliyinə müraciət edir,

**Məktəbəqədər və İbtidai 1-ci siniflər:**

Formativ qiymətləndirmə gündəlik olaraq tətbiq edilə bilər Simmativ qiymətləndirmə tətbiq edilmir

**İbtidai siniflər (II-IV)**

- Tədris ili 2 yarımildən ibarətdir
- Həftədə 1 dəfə tədris edilən fənnlər üzrə hər yarımildə 1 Kiçik Summativ qiymətləndirmə, 1 yarımil sonu Mərkəzləşdirilmiş Lisey imtahanı keçirilir
- Həftədə 2 və daha artıq sayda tədris edilən fənnlər üzrə hər yarımildə 3 Kiçik Summativ qiymətləndirmə, 1 yarımil sonu Mərkəzləşdirilmiş Lisey imtahanı keçirilir
- İngilis dilində tədris edilən bütün fənnlər üzrə həftəlik dərs saatından asılı olmayaraq hər yarımildə 1 Kiçik Summativ qiymətləndirmə, 1 yarımil sonu Mərkəzləşdirilmiş Lisey imtahanı keçirilir

**Orta və yuxarı siniflər**

- Tədris ili 2 yarımildən ibarətdir
- Həftədə 1 dəfə tədris edilən fənnlər üzrə hər yarımildə 1 Kiçik Summativ qiymətləndirmə, 1 yarımil sonu Mərkəzləşdirilmiş Lisey imtahanı keçirilir
- Həftədə 2 və daha artıq sayda tədris edilən fənnlər üzrə hər yarımildə 3 Kiçik Summativ qiymətləndirmə, 1 yarımil sonu Mərkəzləşdirilmiş Lisey imtahanı keçirilir
- İngilis dilində tədris edilən bütün fənnlər üzrə həftəlik dərs saatından asılı olmayaraq hər yarımildə 1 Kiçik Summativ qiymətləndirmə, 1 yarımil sonu Mərkəzləşdirilmiş Lisey imtahanı keçirilir

**İllik qiymətləndirmənin hesablanma qaydası:**

● Həftədə 1 dəfə tədris edilən fənnlər üzrə:
1-ci yarımil: KSQ1 (40%) + MLİ1 (60%) = 100%
2-ci yarımil: KSQ2 (40%) + MLİ2 (60%) = 100%
İllik yekun: (1-ci yarımil + 2-ci yarımil) / 2

● Həftədə 2 və daha artıq sayda tədris edilən fənnlər üzrə:
1-ci yarımil: (KSQ1+KSQ2+KSQ3)/3 (40%) + MLİ2 (60%) = 100%
2-ci yarımil: (KSQ4+KSQ5+KSQ6)/3 (40%) + MLİ2 (60%) = 100%
İllik yekun: (1-ci yarımil + 2-ci yarımil) / 2

● İngilis dilində tədris edilən fənnlər üzrə:
1-ci yarımil: KSQ1 (40%) + MLİ1 (60%) = 100%
2-ci yarımil: KSQ2 (40%) + MLİ2 (60%) = 100%
İllik yekun: (1-ci yarımil + 2-ci yarımil) / 2

Bütün summativ test nəticələri müəllimlər tərəfindən **elektron sinif jurnalına** qeyd edilir. Yarımillik və illik şagird ortalamaları sistemə daxil edilmiş kiçik summativ və mərkəzləşdirilmiş imtahan nəticələri əsasından alqoritmik olaraq avtomatik hesablanır.

**Qiymətləndirmə şkalası:**

| | | |
|---|---|---|
| 5 | A+ | 91% - 100% |
| | A | 81% - 90% |
| 4 | B+ | 71% - 80% |
| | B | 61% - 70% |
| 3 | C+ | 51% - 60% |
| | C | 41% - 50% |
| | C- | 31% - 40% |
| 2 | F | 0% - 30% |

**Şagird proqresinin izlənməsi:**

- Nəticələr Tədrisdə Keyfiyyətin Təminatı şöbəsi tərəfindən təhlil edilir. Məktəb üzrə təhlil nəticələri məktəb rəhbərliyinə, ümumlisey müqayisəli təhlil nəticələri isə İdarə Heyətinə təqdim edilir
- Aşağı nəticə göstərmiş şagirdlərin valideynləri ilə məktəb rəhbərliyi tərəfindən sinif rəhbərləri və müvafiq fənn müəllimlərinin iştirakı ilə görüşlər keçirilir.
- Rəsmi xəbərdarlıq məktubları göndərilir
- Yüksək nəticələr əldə etmiş şagirdlərə təşəkkür məktubları və sertifikatlar təqdim edilir

**Şagirdlərin qiymətləndirməyə cəlb edilməsi:**

- Davamlı rəy və sual-cavab yolu ilə formativ qiymətləndirmə
- Hər yarımildə proqres hesabatı təqdim edilir
- Öz-özünü qiymətləndirmə yolu ilə hədəfin müəyyən edilməsi

**Valideynlərin iştirakı:**

- Davamlı hesabatlar
- Valideyn görüşləri
- Valideyn Müraciəti Sisteminə valideyn rəy, təklif və şikayətlərinin qeydiyyatı

**Monitorinq:**

Siyasətin tətbiqi və effektivliyi rəhbərlik tərəfindən mütəmadi izlənilir və yenilənir.

**"Simurq Liseyi" Təhsil Kompleksi MMC-nin Baş İcraçı Direktoru**

**Tural Abasquliyev**

**İmza**

AZƏRBAYCAN RESPUBLİKASI «SİMURQ LİSEYİ TƏHSİL KOMPLEKSİ» Məhdud Məsuliyyətli Cəmiyyəti AZERBAIJAN REPUBLIC